*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 42-48* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.42*

# Füzulinin "Hədiqətüs-süəda" əsərində Həzrət Əli obrazı

**Ataəmi Mirzəyev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ataemi@rambler.ru

**Annotasiya.** Məhəmməd Füzulinin həm lirik, həm də epik yaradıcılığında dini şəxsiyyətlərə həsr olunmuş çeşidli örnəklər vardır. Şairin əsərlərində yer alan həmin şəxsiyyətlər içərisində Həzrət Əlinin mədhi və vəsfi xüsusi yer tutur. İslam tarixində özünün qəhrəmanlığı, şücaəti, elmi, səxavəti, sadəliyi ilə seçilən Həzrət Əli həmişə Füzulinin diqqət mərkəzində olmuş, onu özünəməxsus fəsahətli bir dildə vəsf və tərənnüm etmişdir. Füzuli lirik şeirləri ilə yanaşı, Kərbəla faciəsinə həsr edilmiş "Hədiqətüs-süəda" əsərində də Həzrət Əlinin parlaq obrazını yaratmağa nail olmuşdur. Belə ki, o, bu əsərdə Kərbəla şəhidlərinin bədii obrazını yaratmağı qarşısına məqsəd qoysa da, yeri gəldikcə Həsrət Əlinin də İslam tarixindəki yerini və rolunu işıqlandırmağa çalışmışdır. Füzuli əsərdə ona ayrıca bir fəsil həsr etməklə yanaşı, digər fəsillərdə də onun şəxsiyyətini səciyyələndirən cizgiləri bütün detalları ilə poetik bir dillə vermişdir. "Hədiqətüs-süəda" əsərinin adı tərcümədə "Xoşbəxtlər bağçası" deməkdir. Füzuli əsərdə təsvir etdiyi bu bağçanın əbədi sakinləri içərisində Kərbəla şəhidləri ilə yanaşı, Həzrət Əlinin də orijinallığı, əhatəliliyi və bənzərsizliyi ilə seçilən obrazını yaratmışdır.
**Açar sözlər:** Füzuli, "Hədiqətüs-süəda", Məhəmməd peyğəmbər, Həzrət Əli, obraz

**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2025; qəbul edilib – 08.05.2025

# The character of Hazrat Ali in the work "Hadigatus-sueda" by Fuzuli

**Ataemi Mirzayev**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ataemi@rambler.ru

**Abstract.** There are various examples dedicated to religious personalities in both epic and lyrical creativity of Mahammad Fuzuli. The word and praise of Hazrat Ali takes an important place among the characters in the poet's works. In Islamic history, Hazrat Ali who distinguished by his heroism, courage, scholarship, generosity, and simplicity was always in a center of interest of Fuzuli, and he praised him in a unique language. Fuzuli succeed to create a brilliant character of Hazrat Ali in his lyrical poems, as well as in the work "Hadigatus-sueda" dedicated to Karbala tragedy. So, even if he set a goal to create artistic image of Karbala martyrs, from time to time, he tried to luminate his place and role in Islamic history. Fuzuli in the work dedicated a separate chapter to him, as well as in other sections, he gave the features that characterize his personality in full detail in a poetic language. The name of the work "Hadigatus-sueda" in the translation means "Garden of Happiness". Fuzuli created the images of Karbala martyrs, as well as the image of Hazrat Ali selected by his originality, extensity and uniqueness among the eternal inhabitants of this garden he mentioned in the work.
**Keywords:** Fuzuli, "Hadigatus-sueda", Prophet Muhammad, Hazrat Ali, character

**Article history:** received – 24.04.2025; accepted − 08.05.2025

## Giriş / *Introduction*

Klassik Azərbaycan divan ədəbiyyatında İslam dininin müqəddəs şəxslərinin mədhinə həsr edilmiş əsərlər ayrıca yer alır. Bu mövzuda müxtəlif şairlər tərəfindən qələmə alınmış çoxlu sayda qəsidələr vardır. Həmin qəsidələrdə Məhəmməd peyğəmbərlə yanaşı, Həzrət Əli, İmam Hüseyn kimi İslam tarixində öz fəzilətləri ilə seçilən şəxsiyyətlər fəsahətli bir dildə vəsf və tərənnüm olunmuşdur. Eləcə də Məhəmməd peyğəmbərin nəti, Əhli-beyt və on iki imamın mədhi divan ədəbiyyatına məxsus müxtəlif janrlarda qələmə alınmış çoxsaylı ədəbi örnəklərdə də əsas mövzulardan biri kimi diqqəti çəkir. Divan şeirində Kərbəla şəhidlərinə həsr edilmiş nümunələr də janr və formaca çeşidli və rəngarəngdir. Bu baxımdan geniş epik təsvirlərə yer verilən və "məqtəl" adı ilə tanınan örnəklər də Şərq ədəbiyyatında işlək olmuşdur. Füzulinin "Hədiqətüs-süəda" əsəri də ədəbiyyat tariximizdə özünəməxsus cəhətləri ilə seçilən məqtəl nümunəsi kimi ayrıca əhəmiyyətə malikdir. "Hədiqətüs-süəda" məzmun və mövzu əhatəsinə görə zəngin olub, din tarixinə, peyğəmbərlərə, Əhli-beytə və Kərbəla şəhidlərinə həsr olunmuş möhtəşəm bir sənət əsəridir.

## Əsas hissə / *Main part*

Məlumdur ki, Füzulinin "Hədiqətüs-süəda" əsəri İran müəllifi Hüseyn Vaiz Kaşifinin "Rövzətüş-şühəda" əsərinin sərbəst-yaradıcı tərcüməsidir. "Füzulinin öz əsərini Hüseyn Vaizdə olduğu kimi, "şəhidlər bağçası" deyil, "xoşbəxtlər bağçası" adlandırması onun "füzuliyanə" kəşfi idi. "Hədiqətüs-süəda" əsərində təsvir edilən xoşbəxtlər bağçasının əbədi sakinləri çoxdur və bu sakinlər təkcə Kərbəla şəhidləri ilə məhdudlaşmır" [4, s.34]. "Hədiqətüs-süəda" əsəri öz inam və imanları yolunda Kərbəlada həlak olanlara ucaltdığı "şəhidlik abidəsi" olsa da, əslində, bu əsər "xoşbəxtlər bağçası" idi. Füzulinin əsərdə təsvir etdiyi xoşbəxtlər bağçasının Adəm, Nuh, İbrahim, Yaqub, Yusif, Məhəmməd peyğəmbər, Fatimeyi-Zəhra və s. kimi sakinləri vardır və həmin bağçanın əbədi sakinlərindən biri də Həzrət Əlidir. "Hədiqətüs-süəda" əsərinin beşinci fəsli xüsusi olaraq Həzrət-Əliyə həsr edilmişdir və bu fəsil "Həzrəti-Murtaza Əli vəfatın bəyan edər" kimi adlandırılsa da, Həzrət Əlinin anadan olduğu vaxtdan ölümünə qədər olan bir dövrü əhatə edir. Onu da qeyd edək ki, "Hədiqətüs-süəda" əsərində Həzrət Əli ilə bağlı verilən əhvalatlar təkcə bu fəsillə məhdudlaşmır. Müəllif yeri gəldikcə əsərin digər bölümlərində – "Həzrəti-Rəsulun Qüreyşdən çəkdigi bəlaləri bəyan edər" (II bab), "Həzrəti-Seyyidül-Mürsəlin keyfiyyəti-vəfatın bəyan edər" (III bab), "Fatimeyi-Zəhra vəfatın bayan edər" (IV bab) adlı fəsillərində də Həzrət Əli ilə bağlı məqamlara yer vermişdir. Füzuli adıçəkilən fəsillərdə Həzrət-Əlini bənzərsiz söz və ifadələrlə vəsf edərək, onun parlaq obrazını yaratmağa müvəffəq olmuşdur.

Allah-taala özünün sevimli bəndəsi olan Həzrət-Əlidən dünyada insana məxsus ən gözəl və ali keyfiyyətlərdən heç nə əsirgəməmişdir. Anadan olduğu vaxtdan qeyri-adi səadətlər, hətta Füzulinin İmamül-Hərəmeyndən nəql edilən rəvayətə istinadən yazdığına görə, Kəbə hərəmində doğulmaq səadəti də ilk dəfə məhz Həzrət Əliyə müyəssər olmuşdur. Şair Həzrət Əlidən sonra heç kəsə müyəssər olmayacaq bu səadəti özünəməxsus obrazlı bir şəkildə – Kəbə hərəmini sədəfə, Həzrət Əlini isə inciyə bənzədərək belə mənalandırmışdır:

*Murtəza bir düri-dəryayi vilayətdir kim,*
*Hərəmi-Kə'bədir ol dürri-yetimin sədəfi.*
*Qeyrdən əşrəf əgər olsa anınçündür kim,*
*Hərəmi-Kə'bədən ol kəsb qılıbdır şərəfi.* [3, s.150]

Füzuli Həzrət Əlinin məziyyət və fəzilətlərinin çoxluğunu nəzərə alaraq, ona həsr etdiyi fəslin başlanğıcında Əlişir Nəvainin "Şəvaidün-Nübüvvət" əsərindəki belə bir fikri xüsusi vurğulayır: "Həzrəti-Əli bin Əbi Talib imami-əvvəldir ə'immeyi-isna əşərdən və mənaqibü fəzaili andan ziyadədür ki, imdadi-xamə ilə təhrirə gələ, ya müsa'ideyi-zəban ilə məzkur ola" [3, s.148]. Daha sonra isə İmam Əhməd Hənbəldən nəql olunan belə bir fikrə diqqəti çəkir: "Əkabiri-səhabənin heç birindən ol miqdar fəzail və mənaqib ki, Əli ibn Əbi Talibdən yetmişdir, yetməmişdir" [3, s.148].

Həzrət Əlinin məhz belə bir keyfiyyətlərə sahib olduğunu bilən Füzuli ona həsr etdiyi fəsildə və eləcə də öncə adı çəkilən digər fəsillərdə Həzrət Əli haqqında yığcam, lakin olduqca zəngin və əhatəli bilgi verməyə çalışmış, onun xarakterini, məziyyət və fəzilətlərini açıqlayan əsas cəhətlərə diqqəti cəlb edə bilmişdir. Füzuli "Hədiqətüs-süəda"da Həzrət Əli ilə bağlı əsas məqamlara diqqət yetirərək onları toplu halında, bu ardıcıllıqla təqdim etmişdir: Həzrət Əlinin elmi, ibadəti, təvazökarlığı, sadəliyi, qəhrəmanlığı, səxavəti, yoxsullara münasibəti, döyüşləri, uzaqgörənliyi, eləcə də Həzrət Əli Quranda və İslam Peyğəmbərinin gözü ilə və s.

Həzrət Əlinin şəxsiyyətini səciyyələndirən fəzilətlər çox olduğu kimi, onun künyə və ləqəbləri də olduqca çeşidli, rəngarəng və sonsuzdur. Füzuli də Həzrət Əliyə məxsus künyə və ləqəblərin bir qismi ("Əbu Turab", "Əbər-Reyhaneyn") haqqında ayrıca bəhs etsə, "Şahi-Mərdan"ı bir neçə məqamda işlətsə də, həmin ləqəblərdən daha məşhurlarını xatırladaraq yazır: "Əlqabi-Həzrəti-Murtəza binəhayətdir, ol cümlədəndir Əmirün-Nəhl və Yə'subəddin və Kərrar və Əsədullah" [3, s.154].

Allah-taala həmişə sevimli bəndələrini sınağa çəkmiş, müsibətlərə düçar etmişdir. Füzulinin sözləri ilə desək, əgər hikmət süfrəsində müsibətdən daha faydalı bir nemət tapmaq ehtimalı olsa idi, Tanrıya yaxın olan pak bəndələr ona rəğbət göstərərdilər.

Müqəddəslik mücəssəməsi olan Həzrət Əli də çatdığı yüksək rütbəyə görə ömrü boyu bəla meydanında möhnət və cəfalar çəkmişdir. "Hədiqətüs-süəda"da Həzrət Əli belə buyurmuşdur: "Mən cəfa çox çəkdüm gərdişi-rüzgardən və cövr çox gördüm aləmi-qəddardən, cümləsindən əs'əb üç müsibət idi və cəmi'sindən ə'zəm üç möhnət idi; biri vəfati-həzrəti-Rəsul ki, cəmi'i-məhalikdə pənahim və qamu məkarihdə ümmidgahım idi... İkinci müsibət fövti-Zəhra idi ki, Mustəfadən sonra həmrazım və cəmi'i-vəqaye'də çarəsazım idi... Və üçüncü möhnət cigərguşələrim (İmam Həsən və İmam Hüseyn – A.M.) şəhadətinin xəbəri idi ki, Rəsulullahdən mə'lum etdüm" [3, s.153-154].

Həzrət Əli Məhəmməd peyğəmbərin ən sevimli yaxın dostu, məsləkdaşı olmuşdur. Məhəmməd peyğəmbərin Həzrət Əliyə olan sonsuz məhəbbətini açıqlayan çoxlu sayda hədislər mövcuddur ki, Füzuli də həmin hədislərdən bir çoxunu əsərinə daxil etmişdir. O, İmam Tirmizidən belə əhvalat verir: "Səlmana sual etdilər ki: "İfrati-məhəbbəti-Murtəzaya səbəb nədür?" Səlman ayıtdı: "Həzrəti-Mustafadan eşitdim ki, buyurdu: hər kim məni sevər, Əlini sevər və hər kim Əlini sevməz, məni sevməz". Və Həq-tə'aladən anınçün dua qılmış ki, "Ya Rəbb, məhəbbət qıl anınla ki, Murtəzayə izhari-məhəbbət qıla və ədavət qıl anınlə ki, Murtazayə ədavət qılmağı kəndüyə lazım bilə" [3, s.155]. Füzuli həmin əhvalatı belə nəzmə çəkmişdir:

*Fərzdir kim, ola siğarü kübar*
*Maili-hübbi-Heydəri-Kərrar.*
*Anın içün demiş Rəsulullah,*
*Həzrəti-Həqqə "vali mən valah".**
*Ey ki, lütfi-İlahə talibsən,*
*Ruzi-məhşər nicatə rağibsən,*
*Olma ol şahə düşməni-bədxah.*
*Hədəfi-tiri-"adə mən 'adah"* **. [3, s.155]

* Onunla dost olanın dostu ol.
** Onunla düşman olanın düşmanı ol.

Daha sonra Füzuli Məhəmməd peyğəmbərin Həzrət Əliyə sonsuz məhəbbətini açıqlayaraq belə bir əhvalat verir: "Rəvayətdir ki, ğəzveyi-Xeybərdə Həzrəti-Rəsul buyurdu ki, "Yarın rayəti bir kimsəyə versəm, gərək ki, çehreyi-mübarəkində nuri- "Yuhəbbətullah və rəsuləhu" ("Allahı və Rəsulunu sevər") dirəxşan və nasiyeyi-pakində nişani- "Yuhəbbullahu və rəsuləhu" ("Allahı və Rəsulu onu sevər") əyan ola. Sabah olduqdə rayəti Murtəzayə verdi" [3, s.156].

Füzuli bu əhvalatlardan sonra Məhəmməd peyğəmbərin Həzrət Əli haqqında digər məşhur hədislərini də təqdim edir: "Məşriqu Əliyyun minni və ənə minhu"dən ("Əli məndəndir və mən ondan") lame' və əxtəri-sifati "Ya Əli, əntə minni bi-mənziləti Harun min Musa" ("Ey Əli, sən mənə Harunun Musaya olduğu qədər yaxınsan") sipehrindən tal'e'dür və xəzneyi-övsafindən "Ənə mədinətül-ilm və Əliyyun babuha" ("Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır") bir gövhərdir..." [3, s.157].

Füzuli həmçinin "Hədiqətüs-süəda"nın üçüncü babında (Həzrəti-Seyyidül-Mürsəlin keyfiyyəti-vəfatın bəyan edər") Məhəmməd peyğəmbərin Həzrət Əli haqqında başqa hədislərini də əsərə daxil etmişdir. Bu baxımdan həmin fəsildə Məhəmməd peyğəmbərin "Həccül-Vida'dan qayıdarkən Qədri-Xumda söylədiyi məşhur nitqin təsviri səhnəsi xüsusilə diqqəti cəlb edir: "Rəvayətdir ki, Həccül-Vida'dən müraciət qıldıqdə əsnayi-təriqdə Ğədiri-Xum deməklə mə'ruf mənzildə cəmaətlə ədayi-nəmaz qıldıqdan sonra səhabəyə mütövəccih olub buyurdu ki: "Ələstu bil-mu'mininə əvla min-ənfusihim", yə'ni "mö'minlərə deyilmiyəm nəfslərindən əvla". Hüzzari-məclis ittifaqla təsdiq verüb ayıtdılar: "Na'am, ya Rəsulallah". Pəs Həzrəti-Murtəzanın əlindən dutub ayıtdı: "Mən kuntu məvlahu fə–haza Əliyyun məvlahu", yə'ni "hər kimin mən mövlası idüm, Əli anın mövlasıdür". "Əllahummə adi mən adahu", yə'ni "İlahi, anınlə ədavət qılana ədavət qıl", "Və vali mən valahu" yə'ni anınlə dost olana dostluq et; "Vəxzil mən xəzələhu" və anı xar dutanı xar dut, "Vənsir mən nəsərəhu" və ana nüsrət verənə nüsrət ver; "Vədirul-həqqə mə'əhu həysə mə kən" və müqarin eylə həqqi ana qanda olursa..." [3, s.103-104].

İslam Peyğəmbərinin gözündə bu cür yüksək məqama malik olan Həzrət Əlinin şəxsiyyətini səciyyələndirən fəzilətlər çoxdur və Füzuli sözü gedən fəsillərdə həmin fəzilətləri kompleks şəkildə qələmə almışdır. Məlumdur ki, Həzrət Əlinin fəzilətlərindən danışılarkən, ən birinci onun elmi haqqında bəhs olunur. Füzuli də öncə məhz həmin məqama diqqət yetirərək yazır: "Və cümlə fəzaildən elmi ol qayətdə idi ki, bir gün payeyi-minbəri pabusi-şərifilə müşərrəf qılub buyurmuş ki: "Ruhum qəbzeyi-qüdrətində olan Mə'bud həqqiçün ki, əgər fərman yetüb Zəburü Tövrat və İncil təkəllüm qılsalar, mən cəmi'i-əsrarlərindən xəbər verəydim və anlar ittifaqlə mənə təsdiq verürlərdi" [3, s.157]. Məhz bu baxımdan Füzuli Məhəmməd peyğəmbərin "Ənə mədinətül-ilm Va Əliyyun babuha" ("Mən elmin şəhəriyəm, Əli onun qapısıdır") hədisini də haqqında danışılan fəslə təsadüfən daxil etməmişdi.

Həzrət Əlinin şəxsiyyətini səciyyələndirən ikinci əsas cəhət onun ibadəti idi. İslamı qəbul edən və Məhəmmədin peyğəmbərliyini təsdiqləyən ilk kişi də məhz Həzrət Əli olmuşdur. Füzuli onun ibadətini səciyyələndirərək yazırdı: "Və ibadəti ol mərtəbədə idi ki, hər gecə xəlvətindən min təkbir istima' olunurdi qeyri-təkbirati-fəraiz və sünəni-mə'hudə" [3, s.157].

Həzrət Əlinin fəzilətləri içərisində onun hilmi (həlimliyi, yumşaqlığı) xüsusi yer alır. Füzuli Həzrət Əlinin hilmindən söhbət açarkən belə bir əhvalat verir: "Bir gün bir köləsini 70 dəfə səsləyən və cavab almayan Həzrət Əli onu axtarmağa başladı, onun hücrənin qapısının arxasında durduğunü görüb soruşdu: "Niyə cavab vermirsən?" Kölə belə cavab verdi: "Ya Əli, səni qəzəbləndirmək istədim". Əli: "Ey qafil, mən o kimsəyəm ki, səni yox, səni bu işə sövq edəni: yəni iblisi qəzəbləndirərəm". Əli köləsini azad etdi və həyatının sonuna qədər onun dolanışığını təmin etdi" [1, s.205-206]. Həzrət Əlinin bu xasiyyəti şəhadətə yetiriləndə – İbn Mülcəm tərəfindən qılınc zərbəsi aldıqda da özünü göstərir; onun İbn Mülcəm haqqındakı qərarı belə olur: "Əgər sui-qəsddən qurtulub sağ qalaramsa, yediyimdən ona da verin, incitməyin".

Füzuli Həzrət Əlinin fəzilətlərindən danışarkən, onun təvazökarlığına da xüsusi diqqət yetirir, onun şəxsiyyətini səciyyələndirən bu cəhəti ayrıca olaraq işıqlandırır. Həzrət Əli geyimində,

yeməyində, gəzməyində də sadə idi və ömrü boyu xalq arasında sadəliyi ilə seçilərdi. O, xilafətə başçılıq etdiyi illərdə belə öz sadəliyindən əl çəkməmişdi. Füzuli qaynaqlardan çıxış edərək yazırdı ki, xilafətə başçılıq etdiyi vaxtlar məğribdən Səmərqəndə qədər olan bir ərazinin onun hakimiyyəti altında olduğuna baxmayaraq, Kufədə piyada gəzər, ata minməzdi. Bir gün bazarlıq etdiyi şeyləri özü götürərkən xidmətçilərdən biri ona dedi: "Ya Əmirəlmö'minin, nə üçün bu işi görməyi xidmətçilərə tapşırmırsan?" Həzrət Əli belə cavab verdi: "Yük daşıma haqqı ailə başçısına düşər". Xidmətçisi dedi: "Sən zamanın xəlifəsisən və cahanın sahibisən, bu iş sənə layiq iş deyil". Həzrət Əli isə belə buyurdu: "İnsanın kamalı ailəsinə yük daşımaqla azalmaz" [1, s.206; 3, s.157]. Həzrət Əlinin kölesinə verdiyi bu cavabların hər biri ayrı-ayrılıqda aforizm və məsəl kimi də dəyərləndirilə bilər.

Həzrət Əli həm də səxavət mücəssəməsi olmuşdur. Onun səxavəti həm Qurani-Kərimdə, həm də müasirləri tərəfindən vəsf edilmişdir. Füzuli də Həzrət Əlinin səxavətindən danışarkən həmin məqamlara ayrıca diqqət yetirmişdir. O yazır: "Və səxavəti o mərtəbədə idi ki, aləmi-fanidə dörd dirhəmi olub birini gizli, birini aşkar, birin gecə və birini gündüz sədəqə verərdi" və "əl- Bəqərə" surəsinin 274-cü ayəsinin də Həzrət Əlinin şəninə nazil edildiyini və dillər əzbəri olduğunu göstərir: "Əlləzinə yunfiqunə əmvaləhum bil-leyli vən-nəhari sirrən və 'əlaniyətən" ("Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Rəbbi yanında böyük mükafatları vardır".) [5, s.51].

Füzuli daha sonra Həzrət Əlinin səxavəti ilə bağlı nazil olan "əl-İnsan" surəsinin 8-ci ayəsini də əsərinə daxil etmişdir: "Və yutimunət-tə'amə əla hubbihi miskinən və yetimən və əsirən" ("Onlar öz iştahları çəkdiyi (özləri yemək istədikləri) halda (və ya Allah rizasını qazanmaq uğrunda) yeməyi yoxsula, yetimə və əsirə yedirərlər") [5, s.848].

Füzuli bununla kifayətlənməyərək "Rövzətüş-şühada"da olmayan "əl-Maidə" surəsinin 55-ci ayəsini də əsərinə əlavə etmişdir: "Və yutunəz-zəkatə və hum raki'unə" ("O kəslər ki, (Allaha) namaz qılır və rükuda olduqları halda zəkat verirlər") [5, s.137-138].

Lakin Füzuli Həzrət Əlinin səxavətini göstərərkən bu deyilənlərlə də kifayətlənmir və fəslin Əlinin səxavətinin dərəcəsini açıqlayan digər məqama diqqəti cəlb edir. Məlumdur ki, Həzrət Əli (ə) kasıblara, ehtiyacı olanlara kömək və yardım göstərərkən təvazö üzündən kimliyini bildirməz, adını gizli saxlayardı. Yalnız Həzrət Əlinin şəhadətindən sonra həmin adamlar onlara yardım edən şəxsin kim olduğunu bilmişlər. Füzuli də onun bu sahədəki fəzilətlərini işıqlandıraraq göstərir ki, İmam Həsənlə İmam Hüseyn Həzrət Əlini dəfn edib geri döndükləri zaman hüznlü bir səslə ah-nalə edən bir fəqirə rast gəlirlər. Ondan ah-nalə etməsinin səbəbini soruşduqda, məlum olur ki, qərib və gözdən kor olan bu kimsəyə hər gün bir nəfər şəxs yemək gətirərmiş və adını soruşduqda "Mənim mərhəmətim Allahın rizası üçündür, şöhrət üçün deyil", – deyərək cavab verərmiş. Həmin qəribin verdiyi nişanələrdən məlum olur ki, həmin şəxs Həzrət Əli imiş [3, s.175; 1, s.230].

Həzrət Əlinin zöhd və pəhrizkarlığı da onun zatının ayrılmaz sifətlərindən idi. O, ömrünün sonuna qədər qənaətlə yaşamış, nəfsini boğmuş, tamahını məhdudiyyətlərə salmışdı. Füzuli Həzrət Əlinin dünya nemətlərinə etinasızlığını belə bir əhvalatla açıqlayır: "Rəvayətdir ki, bir gün xəlifəti zamanında Beytül-mal xəzinəsinə girib qızıl və gümüş yığınlarını bir yerdə görüb dedi ki: "Ya həmra, ya beyza, qurra ğeyri" (Ey altun və gümüş, başqasını aldadın") [1, s.207]. Füzuli Həzrət Əlinin həmin kəlamını özünəməxsus bir ustalıqla belə nəzmə çəkmişdir:

*Olsa zər xurşid, anı hifz etməzəm gərdunmisal,*
*Nüqrə mah olsə, ana xurşidvəş salman nəzər.*
*Rif'ətim babandadır xaki-siyəh xurşidü mah,*
*Himmətim yanındadır toprağa yeksan simü zər.* [3, s.158]

Füzuli Həzrət Əlinin kəramətləri içərisində onun gözəl fəsahət və bəlağət sahibi olmasına da xüsusi diqqət yetirmiş, Quran oxumaq bacarığını ayrıca qeyd etmişdir. Məlumdur ki, Həzrət Əli həm də şair olmuş, onun şeirləri "Divani-Əmir" adlı məcmuədə toplanmışdır. Füzuli "Hədiqətüs-süəda" əsərində Həzrət Əlinin şairliyindən xüsusi olaraq söhbət açmasa da, yeri düşdükcə onun

şəxsiyyətini tamamlayan bu cəhətə də diqqət yetirmişdir. Əsərin "Fatimeyi-Zəhranın vəfatın bəyan edər" adlı dördüncü babında Fatimeyi-Zəhranın ölümü səhnəsində Həzrət Əlinin Fatimeyi-Zəhranın ölümü ilə bağlı yazdığı mərsiyədən iki beyt təqdim etmişdir:

*Li-kulli ictima'in min-xəlileyni firqətun.*
*Və-kullul-əza dunəl-firaqi qəlilun.*
*Və innə iftiqadi Fatimətə bə'də Əhmədin*
*Dəlilun 'əla ən-la-yədumə xəlilun.* [3, s.145]

*(Tərcüməsi: İki dostun birləşməsindən sonra mütləq ayrılıq olur. Ayrılıqla son olmayan çox az qovuşma vardır. Həzrəti-Perğəmbərdən sonra Fatimətüz-Zəhra da eyni yolu tutub getdi. Heç bir dostluq və yoldaşlıq sonsuz deyildir)* [2, s.356].

Lakin bütün bunlarla bərabər, Həzrət Əlinin fəzilətləri içərisində onun şücaəti daha çox xatırlanmış və vəsf edilmişdir. Həqiqətən də, İslamın diriliyi Məhəmməd peyğəmbərin səbrinə və Həzrət Əlinin qılıncına borcludur. Təkcə Təbuk müharibəsi istisna olmaqla, hicrətdən sonra Məhəmməd peyğəmbərin bütün müharibələrində Həzrət Əli iştirak etmiş, tarixən islam ordusu Həzrət Əlisiz elə ciddi qələbə qazanmamışdır. Bu baxımdan İslam peyğəmbərinin Həzrət Əlini islamın "ən şücaətlisi" adlandırması, "Əsədullah" ("Allahın şiri") ləqəbinin ona verilməsi də təsadüfi deyildir. Füzuli də Həzrət Əlinin fəzilətlərindən danışarkən, onun şücaəti üzərində xüsusi dayanmış, öncə adı qeyd edilən bütün fəsillərdə Həzrət-Əlinin şücaətini, döyüş səhnələrini açıqlayan məqamlara sistemli şəkildə olmasa da, ayrıca yer vermişdir. Füzuli həmin hissələrdə, demək olar ki, Həzrət Əlinin iştirak etdiyi bütün döyüşlərin adını çəkmiş, həmin döyüşlərdə Həzrət Əli ilə bağlı məqamlara, o cümlədən, onun sonsuz igidlik və şücaəti şəninə deyilmiş "La fəta illa Əli La seyfə illa Zülfiqar" ("Əlidən başqa igid, Zülfiqardan başqa qılınc yoxdur") kəlama xüsusi yer ayırmışdır. O, xüsusilə, Həzrət-Əlinin Bədr, Uhud döyüşlərində və Xeybər qalasının fəthində göstərdiyi şücaətlərə yer-yer diqqəti cəlb etmişdir. Həzrət Əlinin fəzilətlərini bir-bir açıqlayan Füzulinin adıçəkilən fəsildə son olaraq gəldiyi qənaət belədir: "Həzrəti-Əliyyi-Murtəzanın övsafi-həmidə və əxlaqi-sütudəsinə istida'yi-həsri-təhrir və da'iyeyi-zəbti-təqrir xarici-əhateyi-qüdrəti-bəşər və müşahideyi-surəti-əhvalı mafövqi-im'ani-nəzərdir. Ol cümlədəndir qəzvi-Bədrdə və hərbi-Uhuddə məlhuz olunan asari-nüzuli – "La-Fəta" və müqatileyi-Əmrü Əntər və müharibeyi-Mərhəbi-Yəhudi və qəl'i-babi-Xeybər və hərbi-Ütbə və Şeybə. Şe'r:

*Bir sərvərin ki, şöhreyi-hüsni-xisaliçün*
*Vəssafi "Həl-Əta" ola, məddahı "İnnəma",*
*Layiq degil ki, eyləyə xurşidi-zatının,*
*Damani-ittisalını aludə hər Süha.* [3, s.159]

Füzulinin "Hədiqətüs-süəda" əsərindən çıxış edərək bu dediklərimiz "vilayət və imamət sədəfinin parlaq incisi" (Füzuli), elm, səxavət, insanlıq və şücaət nümunəsi olan Həzrət Əli ibn Əbu Talibin fəzilətlərindən kiçik bir damladır. Həzrət Əlinin şəxsiyyəti bu yazılanlardan qat-qat uca və şərafətlidir. Onu tam əzəmət və böyüklüyü ilə dərk etmək isə insanın qüdrəti xaricindədir.

## Nəticə / *Conclusion*

Beləliklə, "Hədiqətüs-süəda" ilə tanışlıq göstərir ki, əsərdə Kərbəla şəhidlərinin çəkdiyi müsibət, onların keçdiyi həyat yolu geniş və hərtərəfli əks olunmaqla bərabər, İslam tarixində əhəmiyyətli yer tutan görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə də xüsusi diqqət yetirilmişdir. Bu baxımdan Füzulinin yaratmış olduğu Həzrət Əli obrazı özünün orijinallığı ilə seçilir. Müəllif Həzrət Əlinin anadan olmasından ölümünə qədər bir dövrü əhatə etməklə onun İslam tarixindəki mövqeyini, göstərdiyi şücaəti, mənsub olduğu fəzilətləri bütün təfərrüatları ilə toplu halında təqdim etmişdir.

**Ədəbiyyat / *References***


1. Fuzûlî. Hadikat'üs-Süeda. Ermişlerin Bahçesi (Sadeleştiren: M.Faruk Gürtunca). – İstanbul: Huzur Yayın Evi, 2013.
2. Hazret-i Ali Divanı (Tercüme ve Şerheden: Müstakimzâde Süleyman Saadettin Efendi). – İstanbul: Derin Yayınları, 2012.
3. Məhəmməd Füzuli. Əsərləri. Altı cilddə, VI cild (Tərtib edəni: H.Araslı). – Bakı: Şərq-Qərb, – 2025.
4. Mirzəyev A. Füzulinin "Hədiqətüs-süəda" əsəri orta əsrlər tərcümə abidəsi kimi. – Bakı: Nurlan, 2001.
5. Qurani-Kərim və Azərbaycan dilinə mənaca tərcüməsi (Ərəb dilindən tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev). – Bakı: Şərq-Qərb, 2012.


## Образ Хазрата Али в «Хадикатус-суада» Физули


**Атаами Мирзоев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ataemi@rambler.ru



**Резюме.** В лирическом и эпическом наследии Мухаммеда Физули представлены разнообразные художественные образы, отражающие личности, сыгравшие значительную роль в исламской религиозной традиции. Среди религиозных личностей, представленных в творчестве поэта, особое место занимает восхваление и описание Хазрата Али, прославившегося в исламской истории своим героизмом, храбростью, знаниями, щедростью и простотой. Эти качества становятся предметом восхищения Физули, и он превозносит их с присущим ему красноречием. Помимо лирического наследия, яркий и выразительный образ Хазрата Али представлен в произведении «Хадикатус-суада», посвящённом трагедии Кербелы. Хотя целью автора в этом произведении было создание художественных образов мучеников Кербелы, он также при возможности осветил роль и место Хазрата Али в истории ислама. Физули не только посвятил ему отдельную главу, а также в других главах поэтическим языком раскрыл черты характера и духовный облик этой выдающейся личности. Название произведения «Хадикатус-суада» переводится как «Сад счастливых». Среди вечных обитателей сада, художественно воссозданного в данном произведении, Физули создал глубокий и самобытный образ Хазрата Али, выделяющийся своей оригинальностью, всесторонностью и неповторимостью.


**Ключевые слова:** Физули, «Хадикатус-суада», Пророк Мухаммад, Хазрат Али, образ